# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by
the European Union

**Məişət zorakılığı qurbanlarının təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi sahəsində dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin potensialının gücləndirilməsi**




**İcra müddəti:** 01.09.2020 - 31.01.2022

**ŞT ölkələri:**

Azerbaijan

**Aİ-nin maliyyə yardımı:** € 1 000 000

**Ümumi büdcə:** € 1 000 000

**İcraçı təşkilat(lar):**

European Social Fund Agency (Lithuania), Ludwig Boltzmann Institute (Austria), Law Institute of Lithuania under the Ministry of Justice of the Republic of Lithuania

**Sosial media hesablarına keçidlər:**

**Internet səhifəsi:** eu4azerbaijan.eu/projects/eu-project-page/?id=1453

**Layihənin təsviri:**

Layihənin ümumi məqsədi Avropa ittifaqı standartlarına yaxınlaşma prosesində məişət zorakılığı qurbanlarına hüquqi müdafiəni və dəstəyi artırmaqdır. Layihənin məqsədi "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun tam tətbiqi üçün səmərəli hüquq siyasətinin formalaşdırılmasıdır. Layihə çərçivəsində həm də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) və yerli icra hakimiyyətlərinin tərkibində fəaliyyət göstərən Gender Zorakılığı və Uşaqlara Qarşı Zorakılıqla bağlı Monitorinq Qruplarının (MQ) institusional imkanlarının gücləndirilməsi nəzərdə tutulub. Bundan başqa, AQUPDK-un nəzdində müxtəlif rayonlarda fəaliyyət göstərən Uşaq və Ailə Dəstək Mərkəzlərinin (UADM) hüquqi bazasının gücləndirilməsi istiqamətində işin aparılması nəzərdə tutulub.

**Gözlənilən nəticələr:**

- MQ və UADM-nin fəaliyyətini dəstəkləyən xüsusi hüquqi dəyişikliklər paketinin hazırlanması;
- Məişət zorakılığının kriminallaşdırılmasının mümkün təsirlərinin qiymətləndirilməsi;
- Milli İstiqamətləndirmə Mexanizminin yaradılması;
- Təkrar məişət zorakılığı halları ilə bağlı risk qiymətləndirməsinin aparılması;
- MQ, AQUPDK və yerli polis işçiləri üçün təlim planının hazırlanması;
- Cinayətkarlar üçün reabilitasiya proqramımın hazırlanması;
- Geniş ictimaiyyət üçün məlumatlandırma kampaniyasının aparılması üzrə proqramın hazırlanması;
- Jurnalistlər, AQUPDK və QHT-lərin PR işçiləri üçün təlim kitabçasının hazırlanması.